Əziz xanımlar, bayramınız mübarək!

09 (1366) 6-12 mart 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCANIN D-8 ÖLKƏLƏRİ İLƏ QARŞILIQLI MİLLİ MARAQLARA ƏSASLANAN KONSTRUKTİV MÜNASİBƏTLƏRİ MÖVCUDDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib.

Ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən Prezident İlham Əliyev tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğulayıb. Dövlətimizin başçısı D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olmasından məmnunluğunu bildirib. Prezident İlham Əliyev bu qərarı, eyni zamanda, üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirib. O, qeyd edib ki, D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında əlaqələrin yaradılmasının önəminə toxunan dövlətimizin başçısı onun coğrafiyasının Xəzər dənizi və Qafqaz regionuna genişlənməsinin əhəmiyyətini vurğulayıb.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ölkəmizin sədrliyi çərçivəsində COP29-da iqlim gündəliyi üzrə ciddi qərarların qəbul olunduğunu vurğulayıb. D-8-in dünyada 1,2 milyard əhalisi olan üzv dövlətləri əhatə edən böyük iqtisadi və ticari potensiala malik təsisat olduğunu deyən Baş katib onun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafının dayandığını qeyd edib. Qonaq əminliyini bildirib ki, Azərbaycan təşkilatın daha da inkişaf etdirilməsinə, gündəlikdə duran məsələlərin həyata keçirilməsinə öz əsaslı töhfəsini verəcək. Görüşdə D-8 çərçivəsində enerji, iqlim fəaliyyəti, ticarət, kiçik və orta sahibkarlığın inkişafı, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



## QAZAXISTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ DİNAMİK İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu qəbul edib. Dövlətimizin başçısı bir çox sahələri əhatə edən münasibətlərimizin dinamik inkişafından məmnunluğunu bildirərək, Prezident Kasım-Jomart Tokayevlə həm Azərbaycanda, həm də Qazaxıstanda mütəmadi görüşlərini xatırlayıb.

Azərbaycanın və Qazaxıstanın sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlər olduğunu söyləyən Prezident İlham Əliyev beynəlxalq arenada, bölgəmizdə və daha geniş regionda ölkələrimizin vacib roluna toxunub.

Qazaxıstanın Baş naziri Oljas Bektenov Trans-Xəzər multimodal nəqliyyat marşrutunun inkişafı üzrə fəal iş apardıqlarını deyib və bu marşrutla yük axınının ötən il 60 faiz artdığını diqqətə çatdırıb.

Söhbət zamanı son üç ildə ölkələrimiz arasında illik ticarət dövriyyəsinin təxminən 3 dəfə artdığı, nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında artımın davam etdiyi vurğulanıb. Azərbaycanda və Qazaxıstanda yaradılmış birgə investisiya fondu vasitəsilə investisiya layihələrinə dəstək verilməsi, neft-qaz sahəsində birgə layihələrin həyata keçirilməsi, o cümlədən Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə daşınma həcminin artırılmasının perspektivləri ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin yaşıl enerji sahəsində COP29 çərçivəsində imzalanmış sualtı kabel xətti ilə Azərbaycan və Qazaxıstan energetika sisteminin birləşdirilməsi və yaşıl enerji sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.

## ÖLKƏLƏRİMİZ ARASINDA İQTİSADİ SAHƏDƏ ƏLAQƏLƏR DAHA DA GENİŞLƏNİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Rusiyanın "Tatneft" şirkətinin baş direktoru Nail Maqanovu, Qazaxıstanın "KazMunayQaz" şirkətinin İdarə Heyətinin sədri Asxat Xassenovu və Özbəkistanın "Uzbekneftegaz" şirkətinin İdarə Heyətinin sədri Baxodirjon Sidikovu qəbul edib.

Dövlətimizin başçısı çoxtərəfli əməkdaşlığın yeni mərhələsinin başlandığını deyərək, bunun üçün hazırlıq işlərinin uğurla aparıldığını vurğulayıb. Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistanın neft şirkətləri arasında çox sıx istehsalat münasibətlərinin artıq qurulduğunu məmnunluqla qeyd edən Prezident İlham Əliyev ikitərəfli formatda bir sıra layihələrin həyata keçirildiyini deyib, bu xüsusda səyləri birləşdirməyin önəminə toxunub.

Dövlətimizin başçısı birgə istehsal və dost ölkələrə sifarişlərin həyata keçirilməsi baxımından da dördtərəfli əməkdaşlığın rolunu qeyd edib.

Söhbət zamanı yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparılıb, onun ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.



## Qazaxıstan Azərbaycanla müttəfiqlik münasibətlərini ardıcıl şəkildə inkişaf etdirir



“Rəsmi Astana Azərbaycanla bütün sahələrdə müttəfiqlik və tərəfdaşlıq münasibətlərini ardıcıl olaraq inkişaf etdirir”.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Avrasiya Milli Universitetinin baş müəllimi, şərqşünas Janat Momınkulov Qazaxıstanın Baş naziri Oljas Bektenovun Azərbaycana səfərinin yekunlarını şərh edərkən deyib. O əlavə edib: “İki türk dövləti arasında möhkəm və etibarlı tərəfdaşlıq Xəzər regionunda inteqrasiya proseslərinin irəlilənməsi üçün mühüm amildir”.

Ekspertin sözlərinə görə, Qazaxıstan və Azərbaycan ənənəvi olaraq öz regionlarında əsas rol oynayır və nəqliyyat-logistika layihələrinin inkişafına, o cümlədən yüklərin daşınmasını yaxşılaşdırmaq üçün nəqliyyat infrastrukturunun modernləşdirilməsinə xüsusi əhəmiyyət verir.

“İki strateji tərəfdaş tərəfindən iri beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinin gələcəkdə də həyata keçirilməsi regionlararası marşrutların genişləndirilməsi üçün çox böyük əhəmiyyət kəsb edir”, - deyə o qeyd edib.

Ekspert vurğulayıb ki, ötən il Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) üzrə daşımaların həcminin artması onun region iqtisadiyyatı üçün artan əhəmiyyətindən və müxtəlif beynəlxalq aktorlar tərəfindən tələbatın olmasından xəbər verir.

*”Rəqəmsal Ticarət Dəhlizinin rəqəmsal platformasının inkişafı Asiya ilə Avropa arasında TITR boyunca tranzit daşımaların dinamikasına müsbət təsir göstərəcək”*, - deyə şərqşünas bildirib.

## SOCAR Qazaxıstan, Rusiya və Özbəkistan şirkətləri ilə dördtərəfli sənəd imzalayıb

SOCAR-ın təşkilatçılığı ilə “Enerji sahəsində rəqəmsallaşdırma, sənaye təhlükəsizliyi və satınalmalar” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda SOCAR-ın prezidenti Rövşən Nəcəfin, “KazMunayQaz” şirkətinin İdarə Heyətinin sədri Asxat Xasenovun, “Tatneft” şirkətinin baş direktoru Nail Maqanovun, “Uzbekneftegaz” şirkətinin İdarə Heyətinin sədri Baxodirjon Sidikovun çıxışları dinlənilib.



Daha sonra Azərbaycan Respublikasının SOCAR, Qazaxıstan Respublikasının “KazMunayQaz”, Rusiya Federasiyasının “Tatneft”, və Özbəkistan Respublikasının “Uzbekneftegaz” şirkətləri arasında dördtərəfli və ikitərəfli sənədlərin imzalanması mərasimi keçirilib.

Konfrans çərçivəsində, həmçinin “Yeni standartların işlənilməsi və neft-qaz sənayesində tətbiqi”, “Fövqəladə halların aradan qaldırılması üzrə müasir yanaşmalar və birgə reaksiya qruplarının əhəmiyyəti”, “Neft-qaz sənayesi üçün açıq rəqəmsal həllər konsorsiumu – vahid mühəndis mühiti”, “Birgə satınalma fəaliyyətinin üstünlükləri və tətbiqinin prinsip və mərhələləri” mövzularında panel müzakirələr təşkil olunub. Müzakirələrdə mövzular üzrə geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycanda 4.0 Sənaye Mərkəzi yaradılacaq



“Bu il Azərbaycanda 4.0 Sənaye Mərkəzi yaradılacaq”.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SIM) icraçı direktoru Fariz Cəfərov 2024-cü ilin yekunlarına həsr olunmuş konfransda çıxışı zamanı deyib.

O əlavə edib: *“4.0 Sənaye Mərkəzi özəl və dövlət sektorunun nümayəndələrinə müxtəlif layihələrlə tanış olmaq imkanı verəcək. Orada texnoloji şirkətlər öz məhsullarını təqdim edəcək, startapların da iştirakı təmin olunacaq. Mərkəz 5000-dən çox insana rəqəmsal bacarıqlar öyrədəcək”.*

F.Cəfərov qeyd edib ki, hazırda Dördüncü Sənaye İnqilabının innovasiyalarını həyata keçirən şirkətlərin reyestri yaradılır. Beləliklə, 4.0 Sənaye platforması anbar xərclərini 20-40 faiz azaldacaq və məhsuldarlığı 15-30 faiz artıracaq.

## Neftçala Sənaye Məhəlləsində məhsul istehsalı 5 dəfədən çox artıb

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Neftçala Sənaye Məhəlləsində indiyədək 210 milyon manatdan çox məhsul istehsal edilib, bunun da 1,37 milyon manatlıq hissəsi ixracın payına düşür.

İZİA-dan bildirilib ki, 2024-cü ildə 2023-cü illə müqayisədə 5 dəfə çox, yəni 60 milyon manatlıq məhsul satışı həyata keçirilib.

Sənaye Məhəlləsində ümumi investisiya həcmi 63 milyon manatdan çox olan 6 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və 5-i istehsal fəaliyyətinə başlayıb.

Bu günədək sənaye məhəlləsinə sahibkarlar tərəfindən 49,5 milyon manat investisiya yatırılıb, 300-dən artıq daimi iş yeri yaradılıb, növbəti mərhələdə mövcud layihələr üzrə əlavə olaraq 200-ə yaxın iş yerinin də yaradılması nəzərdə tutulur.

## Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu regional nəqliyyat bağlantısına yeni üstünlüklər qazandıracaq



Martın 4-də Bakıda “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının iclası keçirilib.

İclasda assosiasiyaya üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri, nəqliyyat və logistika şirkətlərinin yüksək səviyyəli rəsmiləri daxil olmaqla ümumilikdə 10 ölkədən nümayəndə heyəti iştirak edib.

Tədbirdə Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun regional nəqliyyat bağlantısının əsas arteriyalarından biri kimi yüksəlişdə olduğu qeyd edilib.

Bildirilib ki, TBNM BA-ya üzv dövlətlər arasında sıx əməkdaşlıq çərçivəsində yük əməliyyatlarının idarə olunması üçün kompleks tədbirlər, o cümlədən müasir analitik informasiya sistemlərinə inteqrasiya və yüklərin real vaxt rejimində izlənməsi xidmətlərinin yaradılması həyata keçirilib. Sinqapurun “Global DTC” şirkətinin TBNM üçün “Digital Trade Corridor” multimodal platforması və “Fast Customs” platformasının təqdim etməsi ilə əməliyyatların şəffaflığı artırılıb və nəzarət mexanizmləri gücləndirilib.

Bakı-Tbilisi-Qars dəmiryol xəttinin yük ötürmə gücünün illik 1 milyon tondan 5 milyon tona çatdırılması və bu xətt üzrə yük əməliyyatlarının bərpa edilməsi xüsusilə qeyd olunub.

Tədbir iştirakçıları bildirib ki, əsas məqsəd yüklərin təhlükəsizliyini təmin etməklə, vahid tarifləri razılaşdırmaqla və yük axınının sürətini artırmaqla daşıma sisteminin səmərəliliyini artırmaqdır ki, bu da bütün tərəfdaşların tələbatını qarşılayacaq. Bu yanaşma Orta Dəhliz ölkələrinə uzunmüddətli perspektivdə uğur qazanmağa imkan verəcək.

Sonda iclasın protokolu, “Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında” və “Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında” sazişlərin imzalanması mərasimi olub.

## Orta Dəhlizin potensialından daha səmərəli istifadə imkanları müzakirə edilib

Martın 4-də “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” (TBNM) Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin Bakıda keçirilən tədbirləri çərçivəsində “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov, “Gürcüstan Dəmir Yolu” SC-nin baş direktoru David Peradze və “Qazaxıstan Dəmir Yolları” Milli Şirkəti SC-nin İdarə Heyətinin sədri Nurlan Sauranbayev arasında üçtərəfli görüş olub.



Görüşdə Çindən Avropa istiqamətində göndərilən konteyner yüklərin təyinat məntəqələrinə vaxtında çatdırılması üçün koordinasiyalı fəaliyyətin qurulması üçün zəruri tədbirlər və beynəlxalq dəhlizlərin fasiləsiz, etibarlı və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında yaradılmış “Middle Corridor Multimodal” LTD Birgə Müəssisəsinin fəaliyyətinin təşkili barədə müzakirələr aparılıb.

Orta Dəhlizin əsas tranzit ölkələrinin dəmir yolu ilə yükdaşımalarda əməkdaşlığının regional əhəmiyyəti, illik yük ötürmə gücü 5 milyon tona çatdırılmış Bakı–Tbilisi–Qars dəmiryol xəttinin Şərq-Qərb istiqamətində yük nəqlinə mühüm töhfəsi vurğulanıb.

Tərəflər ötən ilin mart ayında Çinin Sian şəhərində istifadəyə verilmiş Qazaxıstanın nəqliyyat-logistika mərkəzindən ilk konteyner blok-qatarının göndərilməsini sözügedən əməkdaşlığın uğuru kimi qeyd ediblər.

2024-cü ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilmiş 287 blok-qatarın qəbul edildiyi, bu il həmin rəqəmin 600-ə çatdırılması üçün işlərin görüldüyü bildirilib. Həmçinin TBNM ilə yüklərin axınının sürətləndirilməsi üçün birgə səylərin əhəmiyyəti, bu əməkdaşlığın Çin–Mərkəzi Asiya–Azərbaycan marşrutunu qlobal müstəvidə yeni səviyyəyə qaldıra biləcəyi xüsusi vurğulanıb.

## “2025-ci ildə Orta Dəhlizlə 2,5 milyon ton yükdaşıma nəzərdə tutulub”

“Cari ildə Orta Dəhlizlə 2,5 milyon ton yükün və 96 min konteynerin daşınması nəzərdə tutulub”. Bu sözləri Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Beynəlxalq Assosiasiyasının baş katibi Heydər Abdikərimov jurnalistlərə açıqlaması zamanı deyib.

O bildirib ki, bu həcmdə yükün aşırılmasına nail olmaq üçün dəmir yolları və gəmi limanları əsassız gecikmələrin qarşısını almalı və dəqiqliklə yükləri qəbul edib yola salmalıdırlar.



*“Xəzər və Qara dənizin sahillərindəki limanlar infrastruktura diqqət yetirməli, sərmayə yatıraraq imkanlarını artırmalıdırlar. Yük terminalları daha da genişlənməli, yüklərin qəbulu və boşaldılması gecikməməlidir. Dəmir yolları isə texniki məsələləri daim diqqət mərkəzində saxlamalıdır. Orta Dəhlizlə planlaşdırılandan artıq yükdaşıma da həyata keçirilə bilər”*, - deyə baş katib əlavə edib.

## “ASCO 1000 ədəd konteyner daşıya bilən gəmilər inşa etməyi planlaşdırır”

“Son 10 ildə “Azərbaycan Xəzər dəniz Gəmiçiliyi” QSC (ASCO) 32 gəmi inşa edərək istismara verib”.

Bunu ASCO-nun sədr müavini Tariyel Mirzəyev “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” (TBNM) Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin iclasında bildirib.

Onun sözlərinə görə, həyata keçirilən infrastruktur islahatlarının nəticəsi olaraq limanlara daxil olan yük gəmilərinin limanda dayanma müddəti 20 saatdan 5 saata qədər endirilib.

“Bunun nəticəsində ötən il 56 min konteyner (TEU) qəbul edilərək yola salınıb. Xəzər dənizinin suyunun azalması və havaların qeyri-sabit keçməsinə baxmayaraq bu il 88 min TEU-nun tranzit olaraq qəbul edilib göndərilməsi nəzərdə tutulub”, - deyə sədr müavini əlavə edib.

Tariyel Mirzəyev qeyd edib ki, ASCO-nun əsas məqsədlərindən biri trans-Xəzər marşrutu ilə hərəkət edən gəmilərə xidmət göstərməkdir: “ASCO qarşıdakı illərdə 1000 ədəd konteyner daşımaq imkanına malik olan gəmiləri inşa etməyi planlaşdırır”.

# О Трампе, Путине и Зеленском, сбывшихся предсказаниях и возможности мира.

*(Главное из резонансного интервью Лукашенко)*

Состоялась премьера резонансного интервью Президента Беларуси Александра Лукашенко для американского блогера Марио Науфала.

Полуторачасовое интервью состоялось еще в четверг, 27 февраля. Александр Лукашенко прямо и откровенно ответил на многие вопросы, которые в том числе касались очень непростой нынешней ситуации в мире, перспектив завершения войны в Украине, политики новой администрации США и лично Президента Дональда Трампа. Рассказал глава белорусского государства и о позиции России по ряду вопросов, своих разговорах с Владимиром Путиным и предстоящем визите в Москву.

Президент высказал позицию о том, что в целом между Востоком и Западом не должно быть каких-то преград для сотрудничества. Главный тезис Александра Лукашенко - о мире, необходимости как можно скорее остановить любые конфликты и наладить между крупными мировыми игроками нормальное и доверительное сотрудничество. От этого, уверен он, выиграют все стороны.

БЕЛТА собрала главные цитаты на разные темы из интервью Александра Лукашенко.




**О Дональде Трампе и новой администрации США**

"Никто не мог и предположить. Но один человек, который рискнул это сделать, - Дональд Трамп - очень быстро ситуацию с головы на ноги поставил. Будем надеяться".

"Они молодцы. И Трамп молодец, что он часто говорит и что-то делает уже в направлении того, чтобы прекратить войну в Украине, прекратить войну на Ближнем Востоке. Это дорогого стоит во внешней политике. Мне кажется, и другой политики нет у него, как прекратить войну. Блестящая идея. Вот тут я готов встать рядом и делать все то, что необходимо для прекращения войны и улучшения жизни людей".

"Молодец, что он начал делать ревизию. USAID (Агентство США по международному развитию. - Прим. БЕЛТА) закрыли и так далее. Чем они занимались? Они финансировали перевороты в странах. Около пяти с лишним миллиардов - то, что просто известно пока, было направлено в Украину для того, чтобы совершить Майдан. Зачем? И мы это в 2020 году пережили. Наш мятеж внутри Беларуси финансировался по этим источникам".

Лукашенко назвал Трампа невероятным человеком, но призвал его команду остыть после выборов

"В шутку говорю: "Вот там, в Америке, меня не хватает". Вот я бы Трампу прямо в глаза сказал, как нельзя делать. Слишком много заявлений, которые вообще не надо было озвучивать… Надо остыть после выборов. И надо в интересах избирателей США, прежде всего, и, во-вторых, всего мирового сообщества делать шаги. У вас не много времени, чтобы доказать американскому обществу, что вы на что-то способны. Если вы этого не сделаете, республиканцы потерпят жесточайшее поражение на следующих выборах. И это будет по делу".

**О войне и мире в Украине**

"Не надо Зеленского сейчас наклонять, какой бы он ни был. Надо убедить, договориться и с Зеленским, потому что за Зеленским стоит большая часть украинского общества. Поэтому надо договариваться. Хотите - приезжайте. Вот, рядом - 200 километров от белорусской границы до Киева. Полчаса на самолете. Приезжайте. Вот здесь сядем. Спокойно, без шума, без криков договоримся. Поэтому передайте Трампу: я его жду здесь вместе с Путиным и Зеленским. Сядем и спокойно договоримся. Если вы хотите договориться".

"Мне кажется, Путин (мы на эту тему с ним не разговаривали, но я же его хорошо знаю) не думал, что это выльется в такую войну. В противном случае он бы не пошел на переговоры. Когда он увидел, что гибнет огромное количество людей, Путин мгновенно пошел на переговоры, чтобы конфликт остановить, чтобы договориться".

Лукашенко призывает не искать виновных в украинском конфликте, а двигаться к миру

"Выбор есть всегда. И у Путина, возможно, был такой выбор (начинать СВО или нет. - Прим. БЕЛТА). Дело даже не столько в расширении НАТО на восток, а дело в тех угрозах, которые создавались в Украине… Он оттуда видел угрозы России и оттуда эти угрозы публично поступали в его адрес. Это одна из крупных причин того, что произошло".

"Когда в Стамбуле процесс шел к заключению мирных соглашений, туда приехал тогдашний премьер-министр Англии Джонсон. Это публично было. И запретил Зеленскому идти к миру. Он подтолкнул еще раз Зеленского к войне. Я хорошо знаю, как на Западе кухня эта функционирует. Никогда Джонсон самостоятельно это не сделал бы без того, чтобы его не подтолкнула тогдашняя администрация США. Поэтому абсолютно убежден в том, что к очередному витку эскалации в Украине причастны Великобритания и администрация Байдена".

"Был определенный результат, на который Путин часто ссылается. Был документ соответствующий. Документ гораздо выгоднее (для Украины. - Прим. БЕЛТА), нежели сейчас положение, - сказал Александр Лукашенко. - И тогда я публично все время подталкивал руководство Украины к тому, что надо заключать мир, надо соглашаться. - Нет, мы будем воевать до последнего украинца. К этому и Запад подталкивал Украину. Ну вот воюют до последнего украинца".

"Мы потом найдем, кто виноват. Никто от ответственности не уйдет. Мы подробно обсудим и разберемся в причинах этого. Сегодня в повестке дня не этот вопрос… Только с приходом к власти Дональда Трампа вопрос был поставлен ребром - остановить войну. И он прямо сказал, что он может сделать, и что будет, если война не будет остановлена. Правильно сказал. Это сегодня главное, а не поиск виновных. Тут мы с американцами на одной доске. Мы должны сделать ради этого все".

"Украина слишком мала для того, чтобы разрушить тот мир, в котором мы все живем - и США, и Китай, и Россия, и Украина. Это слишком малая взрывная сила. Поэтому надо с Украиной закончить. С Ближним Востоком проще будет закончить, если американцы этого захотят. И мне кажется, что в этом году мы эти проблемы решим".

**О нежелании быть посредником в украинском вопросе**

"Больше всего я ненавижу посредничество. Это значит быть между кем-то и делать вид, что ты что-то там можешь… Если где-то что-то помочь, организовать, подтолкнуть какой-то процесс, если это в моих силах и в силах моего государства, Беларуси, - с большим удовольствием. Но только к тому, чтобы было людям лучше. Но я ни в коем случае не хотел бы быть каким-то посредником, особенно по нормализации отношений в Украине".

О позиции насчет западных миротворцев в Украине

"По поводу направления туда (в Украину. - Прим. БЕЛТА) миротворческих сил. Россия никогда с этим не согласится. По крайней мере, такая позиция России на сегодняшний день. Тем более что руководство Европейского союза, прежде всего в лице Германии и Франции, занимает очень агрессивную позицию в данный момент".

**О сбывшихся предсказаниях Зеленскому**

"Я ему сказал, что в США к власти придет новая администрация, и политика изменится. Никто тебя (Зеленского. - Прим. БЕЛТА) не будет поддерживать в войне. Так и произошло. Все было предсказано. Не потому, что я великий предсказатель. Но все, что я сказал, это есть в средствах массовой информации. Запись есть соответствующая. Все это и произошло".

"То, что вам жаль Зеленского, - мне его тоже жаль. Я к нему относился, как к собственному сыну. У нас с ним были очень хорошие отношения. Я был в Украине, мы вели с Зеленским переговоры. Он неглупым мне показался человеком. Где-то он чего-то не знал (это были первые его шаги на этом посту), он у меня спрашивал: а это как, а как поступит этот человек, а как надо поступить? Такие были теплые, дружеские отношения. Но то, что он поддался, пошел на поводу у этих крайних националистических сил, это плохо".

**О политике США в отношении ЕС и Китая**

"Что бы я посоветовал Трампу: не надо с бухты-барахты нападать на Китай. С Китаем вам надо договориться. Я знаю очень хорошо Китай. На моих глазах Китай развивался. Вы Китай не остановите. Это не мы, не Россия. Это - Китай. Там народ заточен, полтора миллиарда человек заточены защищать до последнего Китай. Договоритесь с китайцами. Это будет в интересах всей планеты".

"Могу абсолютно точно сказать: Си Цзиньпин не то что войны не хочет, он не хочет никакого обострения отношений. Ему не надо конфронтация. Это в крови у китайцев. Они тихо, спокойно будут что-то делать, и они понимают, что в этой тишине они могут иметь успех. И имеют успех. Они никак не приемлют войну".

**О возможности союза между США и Россией**

"США - это первая страна в мире, высокотехнологичная, богатая. Они способны на многое. Это в России понимают. И Россия будет стремиться наладить очень добрые отношения с Соединенными Штатами Америки".

**О готовности сторон нажать "красную кнопку"**

"Я не думаю, что Путин был поставлен в такую ситуацию, что ему надо было нажимать красную кнопку. По крайней мере (мы напрямую не обсуждали этот вопрос, но косвенно мы же видели, к чему все идет), никогда Путин не говорил о том, что он готов к крайним мерам. Я не думаю, что он готов. Он настолько был готов нажать красную кнопку, насколько вы в Соединенных Штатах Америки, в Англии или Франции были к этому готовы. Знаю, вы к этому не были готовы. Точно так не был готов к этому и Путин".

Лукашенко: я призываю европейцев и американцев к тому, чтобы нашим детям и внукам жилось нормально

"Мне кажется, что, несмотря на ту непонятную политику, которую проводит Европейский союз, там найдутся здравомыслящие люди, которые сумеют сохранить Европейский союз и наладить отношения, в том числе и с нами, с Россией".

"Что касается европейцев, мы живем на одном континенте. Беларусь является центром Европы. У нас в Полоцке центр Европы. То есть Беларусь сердце Европы. Отсюда все вытекает. Поэтому я могу сказать, как у нас часто говорят: давайте жить дружно. Посмотрите: вокруг такая красота, и это создано нашими руками. И не только нашими, но и Господом. Давайте это сохраним для детей, это главное, и для меня в том числе".

**5 марта, Минск**
**/Корр. БЕЛТА/.**



# Трамп заявил, что сделка по украинским природным ресурсам все еще возможна



Президент США Дональд Трамп заявил, что заключение сделки между Вашингтоном и Киевом по украинским полезным ископаемым остаётся возможным. Об этом он сообщил журналистам в Белом доме, передает Trend.
"Нет, я так не думаю", — ответил Трамп на вопрос о том, считает ли он "сделка мертва". "Думаю, это отличное соглашение для нас <...>", — добавил он.
Трамп отметил, что планирует затронуть эту тему в своём выступлении на совместном заседании Сената и Палаты представителей Конгресса 4 марта.

# В Баку подписан протокол по итогам заседания ТМТМ




Подписан протокол 22-го заседания Международной ассоциации "Транскаспийский международный транспортный маршрут" (ТМТМ), состоявшегося в Баку.
В рамках мероприятия был подписан меморандум о взаимопонимании и взаимоподдержки между АО "Казахстанские железные дороги" (КТЖ) и PTC Holding.
По результатам заседания Международной ассоциации ТМТМ, компаниям АО "Poti Trans-Terminal" (Грузия), Xi'an Free Trade Port Construction and Operation Co., LTD (Китай) и UZ Cargo Poland Sp. z o.o. (Польша) был присвоен статус ассоциированных членов.

# "Исламские страны должны обладать правом вето в Совете Безопасности ООН"

Настало время адаптации глобальных механизмов принятия решений к меняющимся условиям в мире.
Об этом заявил президент Турции Реджеп Тайип Эрдоган на ифтаре с послами.
По его словам, мусульмане, составляющие четверть населения Земли, должны быть достойно представлены в процессах принятия решений.
«Наличие хотя бы одной исламской страны с правом вето в Совете Безопасности ООН - это уже не требование, а необходимость», - подчеркнул президент.
«Мы видим, что вместо справедливого распределения власти между пятью постоянными членами они концентрируют её в своих руках, пытаясь таким образом решать проблемы. Но стоит помнить: чем дольше они сопротивляются волне перемен, тем больше становятся масштабы наших проблем», - отметил Эрдоган.



# Азербайджан и Узбекистан утвердили сроки заседания межправкомиссии на 2025 г.



Азербайджан и Узбекистан договорились о проведении 14-го заседания Совместной межправительственной комиссии по сотрудничеству в первой половине текущего года.
Как сообщает Trend, об этом стало известно в ходе встречи между министром инвестиций, промышленности и торговли Узбекистана Лазизом Кудратовым и послом Азербайджана в Узбекистане Гусейном Гулиевым.
По итогам встречи также были согласованы взаимные шаги по организации 14-го заседания Совместной межправительственной комиссии по сотрудничеству в первой половине 2025 года, а также других мероприятий в рамках двусторонней повестки узбекско-азербайджанского сотрудничества.
В ходе переговоров стороны также обсудили меры для своевременной реализации достигнутых договоренностей, а также перспективы расширения торгово-экономического и инвестиционного сотрудничества, уделяя особое внимание активному вовлечению деловых кругов обеих стран.
Была отмечена положительная динамика инвестиционного сотрудничества. В настоящее время в Узбекистане функционируют 257 предприятий с участием азербайджанского капитала, включая 56 совместных компаний и 201 предприятие со 100% азербайджанским участием. Отметив высокий потенциал для кратного увеличения этих показателей, стороны договорились о продвижении перспективных проектов среди бизнес-сообществ Узбекистана и Азербайджана.

# Арабы приняли план по восстановлению Газы



Участники Лиги арабских государств (ЛАГ) единогласно проголосовали за план по восстановлению сектора Газа, который предложил Египет.
Как передает Reuters, проект предусматривает, что палестинцев не будут переселять из сектора Газа. Управлять анклавом в течение шести месяцев переходного периода, согласно плану, должен сформированный комитет технократов.
Лига арабских государств также призвала Совбез ООН разместить на Западном берегу и в секторе Газа миротворцев.
Премьер-министр Палестины Мухаммед Мустафа сказал Al Jazeera, что реализация плана оценивается в $53 млрд. «Вопрос реконструкции будет находиться в ответственности независимого органа или организации, которую создаст Палестинская администрация под международным надзором», — сообщил он.
Мухаммед Мустафа также уточнил, что для обеспечения прозрачности деньги на восстановление анклава будут поступать через Всемирный банк. По его словам, Палестина также намерена реформировать полицию в секторе Газа. Президент США Дональд Трамп говорил, что Вашингтон настаивает на принудительном переселении палестинцев за пределы сектора Газа. Он также заявлял, что после завершения войны анклав перейдет под контроль Соединенных Штатов. ЛАГ отвергла план Дональда Трампа.

# В Азербайджане создается Национальная бизнес-ассоциация




Об этом заявил председатель правления, главный исполнительный директор Caspian Energy Club Тельман Алиев на проходящем сегодня в Баку B2B Forum по развитию бизнес-связей между Азербайджаном, Латвией, Эстонией и Финляндией.
По его словам, будет создана масштабная организация, объединяющая азербайджанский бизнес в 100 странах мира.
«Азербайджанский бизнес представлен во многих странах. В этом направлении нам необходима поддержка. Мы стремимся к двустороннему сотрудничеству, так как именно такой формат взаимодействия является наиболее успешным», - добавил Т.Алиев.

# Главная цель Caspian Energy Club - улучшение инвестиционной и бизнес среды

Главной целью Caspian Energy Club является улучшение инвестиционной и бизнес среды в Азербайджане.
Об этом заявил первый заместитель генерального директора Caspian Energy Club Расим Махмудов на проходящем сегодня B2B Forum, посвященном развитию бизнес-связей между Азербайджаном, Латвией, Эстонией и Финляндией. Он отметил, что Caspian Energy Club организует мероприятия в этом направлении.

# После заявления Трампа… рухнули фондовые рынки США

Американские акции лишились $3,4 трлн, пишет Bloomberg.
По мнению финансовых аналитиков, это рекордное падение связывают с решением властей США ввести новые торговые пошлины. Инвесторы опасаются возможных экономических последствий, в частности замедления роста и снижения прибыли корпораций.
По подсчетам Bloomberg, фондовый индекс S&P 500 потерял 4,8% после пика этого года, достигнутого им 19 февраля. Совокупная капитализация входящих в индекс американских компаний снизилась на $3,4 трлн. Индекс S&P 500 начал рост в ноябре прошлого года, когда избрание Дональда Трампа заставило инвесторов надеяться, что курс новой администрации стимулирует развитие американской экономики. Но по мере усиления риторики Трампа о повышении или введении новых тарифов на товары из Мексики, Канады, Китая, ЕС и т. д. динамика индекса стала меняться. Спустя две недели индекс S&P 500 потерял все достигнутое за предыдущие два месяца роста.
Акции ведущих компаний теряют позиции, в частности, в автопроме: глава Ford Motor Джим Фарли заявил, что пошлины «уничтожат миллиарды долларов прибыли». Особенно пострадали штаты, где традиционно сильны позиции Трампа, включая Флориду – экспортные отрасли которых оказались под ударом.
Аналитики называют это крупнейшей торговой авантюрой со времен Великой депрессии.

# Поставки зерна из Казахстана в Азербайджан увеличились

Поставки зерна из Казахстана в Азербайджан через Бакинский зерновой терминал достигли 1,5 миллиона тонн.
Об этом стало известно по итогам первого заседания рабочей группы между представителями министерств сельского хозяйства Казахстана и Азербайджана.
В ходе встречи вице-министр сельского хозяйства Казахстана Ермек Кенжеханулы и заместитель министра сельского хозяйства Азербайджана Эльчин Разим оглы Зейналов подчеркнули важность укрепления двустороннего сотрудничества в аграрном секторе. Стороны отметили, что создание рабочей группы направлено на усиление взаимодействия и определение ключевых направлений партнерства.
Представители двух ведомств обсудили перспективы поставок племенного материала (семени) сельскохозяйственных животных из Казахстана в Азербайджан, а также вопросы обмена семенами сельхозкультур, проведения экологических сортоиспытаний, участия в научных конференциях. Дополнительно был поднят вопрос о развитии совместных образовательных программ и двудипломного образования между аграрными вузами двух стран.

# Su nəqli zamanı 12-13 milyard kubmetr suyun 30 faizə qədəri itkiyə gedir

"Hazırda su obyektlərində götürülən 12-13 milyard kubmetr suyun 30 faizə qədəri nəql zamanı itkiyə gedir və istifadə olunan suyun miqdarının 80 faizə yaxın hissəsi suvarma üçün nəzərdə tutulur. Bu da mövcud iqlim şəraitində nəzərdə tutulan suvarma norması ilə müqayisədə yüksəkdir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Su Ehtiyatları Agentliyi (ADSEA) yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin (SİMDNX) şöbə müdiri Rafiq Verdiyev brifinqdə bildirib.

R.Verdiyev qeyd edib ki, bunun əsas səbəbi əkinçilikdə müasir suvarma praktikasının lazımi səviyyədə tətbiq edilməməsi ilə bağlı olan əlavə itkilərin olması, o cümlədən əkinçilikdə tələb olunan qayda və prinsiplərə tam əməl olunmamasını göstərmək olar.

*"Suvarma məqsədilə suyu mənbələrdən götürərkən israfçılığa yol verilməsi torpağın sıradan çıxmasına, o cümlədən yer səthinə yaxın olan yüksək minerallığa malik qrunt sularının səviyyəsinin daha da yüksəlməsi nəticəsində torpağın şoranlaşmasına, məhsuldarlığının azalmasına, ya da əkin dövriyyəsindən çıxmasına səbəb olur. Su mənbəyindən həddən artıq çox suyun götürülməsi, eyni zamanda, çayların ekoloji axımının təmin olunmaması nəticəsində onun ekosisteminin deqradasiyasına və bəzən çayların qurumasına səbəb olur"*, - deyə Rafiq Verdiyev bildirib.

# "Yeraltı və yerüstü suların elektron coğrafi xəritəsi hazırlanacaq"

"Respublika ərazisində (o cümlədən Naxçıvan Muxtar Respublikasında) su ehtiyatlarının qiymətləndirilməsi iki istiqamət üzrə aparılır".

Bunu Azərbaycan Su Ehtiyatları Agentliyi yanında Suların istifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti xidmətinin şöbə müdiri Ataxan Bədəlov brifinqdə bildirib.

Şöbə müdiri qeyd edib ki, yeraltı su ehtiyatlarının qiymətləndirilməsi 8800 ədəd müşahidə quyuları, o cümlədən 2100 ədəddən yuxarı müalicəvi, kəhriz və termal suların dərinlik quyularından əldə edilən məlumatlardan istifadə etməklə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Geoloji Kəşfiyyat Agentliyi" PHŞ tərəfindən aparılan hidrogeoloji tədqiqatlar əsasında həyata keçirilir.

"Yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə respublika ərazisində mövcud olan çaylar üzərində və Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində mütəmadi hidroloji monitorinqlərin aparılması üçün 88 stansiya və məntəqə vasitəsilə suyun səviyyəsi, temperaturu, su sərfinin ölçülməsi məqsədilə gün ərzində iki dəfə monitorinq ölçmə işləri aparılır, suyun kimyəvi göstəricilərinin müəyyən edilməsi və laborator analizlər aparılması üçün nümunələr götürülərək aidiyyəti üzrə göndərilir.

# Ukrayna Azərbaycandan qeyri-neft məhsulları alışını 3 dəfədən çox artırıb

Bu ilin yanvar ayında Azərbaycandan Ukraynaya 21,8 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata görə, bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 15,5 milyon ABŞ dolları və ya 3,4 dəfə çoxdur.

Dövr ərzində Ukraynaya qeyri-neft məhsullarının ixracı Azərbaycanın ümumi ixracının 8,88%-ni təşkil edib. Bununla da Ukrayna Azərbaycanın ən çox qeyri-neft məhsulları ixrac etdiyi ölkələr sırasında 5-ci pillədə qərarlaşıb.

Eyni zamanda, cari ilin yanvarında Azərbaycanla Ukrayna arasında ticarət əməliyyatlarının həcmi 44,4 milyon ABŞ dolları olub. Məlumata görə, bu, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 9,8 milyon ABŞ dolları və ya 28,2% çoxdur. Hesabat ayında Azərbaycandan Ukraynaya 22,8 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilib ki, bu da 2024-cü ilin yanvar ayındakı göstəriciyə nisbətən 15,9 milyon ABŞ dolları və ya 3,3 dəfə çoxdur.

Bu ilin yanvarında Azərbaycana Ukraynadan məhsul idxalı illik müqayisədə 6,1 milyon ABŞ dolları və ya 22% azalaraq 21,7 milyon ABŞ dollarına çatıb.

Hesabat dövründə xarici ticarətdə 986 milyon dollarlıq müsbət saldo yaranıb ki, bu da, illik müqayisədə 285 milyon dollar və ya 40,7% çoxdur.

# "Qazaxıstan neftinin Azərbaycan üzərindən daşınmasını artırmaq üçün ilk addımlar atılıb"

"Azərbaycan ilə Qazaxıstan arasında energetika sahəsində çox yaxşı əməkdaşlıq var. Bu gün Qazaxıstan nefti Azərbaycan üzərindən tranzit olaraq dünya bazarlarına gedir".

Bu sözləri energetika naziri Pərviz Şahbazov yerli televiziya kanallarına deyib.

Nazir qeyd edib ki, 2023-cü ilin mart ayından ötən ilin sonuna kimi Azərbaycanın üzərindən 2,5 milyon ton neft daşınıb:

"Bu həcmlərin artırılmasına dair bizim konkret planlarımız var, hətta bu istiqamətdə ilk addımlar atılıb".

Nazir Orta Dəhlizin əhəmiyyətindən də danışıb: "Sözsüz ki, nəqliyyat və Orta Dəhliz Azərbaycanı, Qazaxıstanı, eləcə də, regionun digər ölkələrini birləşdirən çox mühüm bir layihədir. Azərbaycan və Qazaxıstan burada böyük rol oynayır. Ümumiyyətlə, son iki ildən bir qədər çox müddətdə iki ölkə arasında 40-a qədər iki tərəfli sənədlər imzalanıb.

Bütün bu faktlar bizim iki ölkə arasında əlaqələrimizin davam edəcəyinə çox gözəl sübutdur. Mən düşünürəm ki, qarşılıqlı səfərlə bu əlaqələrin inkişafına çox böyük töhfə verir".

# Vergi sahəsində yeni əməkdaşlıq imkanları nəzərdən keçirilib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidenti Orxan Nəzərli Norveç Vergi Administrasiyasının baş direktoru xanım Nina Şanke Funnemark ilə videoformatda görüş keçirib.

Dövlət Vergi Xidmətindən verilən məlumata əsasən, görüşdə gündəmdə olan prioritet əməkdaşlıq istiqamətləri və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi barədə müzakirələr aparılıb. Tərəflər həm IOTA çərçivəsində, həm də ikitərəfli səviyyədə vergi sahəsində təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikirlərini bölüşüblər. IOTA-nın fəaliyyətinin genişləndirilməsi istiqamətində təkliflər müzakirə edilib. Qeyd olunub ki, əlaqələrin möhkəmləndirilməsi hər iki ölkə üçün vergi sistemlərinin yüksək beynəlxalq standartlara uyğun təşkili baxımından mühüm əhəmiyyət daşıyır.

Görüşün davamında vergi inzibatçılığı sahəsində birgə təşəbbüslərin artırılması imkanları nəzərdən keçirilib, bu məqsədlə mövcud potensialdan istifadənin önəmi vurğulanıb, qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# Transxəzər Fiber Optik Kabel Xəttinin tikintisinə dair mühüm sənəd imzalanıb



Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin mühüm komponenti olan Transxəzər Fiber Optik Kabel Xəttinin tikintisi üzrə növbəti mərhələyə başlanılır.

Azərbaycan və Qazaxıstanın Baş nazirləri Əli Əsədov və Oljas Bektenovun iştirakı ilə Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisinə dair müqavilənin təsdiq edilməsi haqqında sənəd imzalanıb. Sənədi "AzerTelecom" şirkətinin Direktorlar Şurasının sədri Emil Məsimov və "Kazakhtelecom" şirkətinin Direktorlar Şurasının sədri Bagdat Musin imzalayıblar.

Region üçün strateji əhəmiyyət daşıyan Transxəzər Fiber Optik Kabel Xətti Layihəsi çərçivəsində Sumqayıt (Azərbaycan) və Aktau (Qazaxıstan) şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda fiber-optik kabel xətti çəkiləcək. Bu, çoxterabitli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulmasını təmin edəcək.

Tikinti prosesi sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksəkkeyfiyyətli, davamlı kabellərin layihələndirilməsi və istehsalı, habelə onların daşınması və quraşdırılması da daxil olmaqla bir neçə mərhələdə həyata keçiriləcək. "AzerTelecom" və "Kazakhtelecom" şirkətləri tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır. Transxəzər Fiber Optik Kabel Xətti müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan ərazilərindən keçəcək rəqəmsal telekommunikasiya dəhlizi olan "Rəqəmsal İpək Yolu" layihəsinin önəmli hissəsidir.

Bu rəqəmsal infrastruktur məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edən ən optimal və qısa marşrut olmaqla ölkələr arasında regional əməkdaşlığa və dayanıqlı inkişafa təkan verəcək.

# SOCAR dekarbonizasiya və enerji keçidi istiqamətində mühüm layihələr icra edir

"Ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf prinsipinə sadiq qalan SOCAR ölkəmizin ekoloji siyasətinə uyğun olaraq dekarbonizasiya və enerji keçidi istiqamətində mühüm addımlar atır. SOCAR beynəlxalq ekoloji konvensiyalar və müqavilələr çərçivəsində öz öhdəliklərini yerinə yetirməklə yanaşı, iqlim dəyişikliklərinə təsirin azaldılması sahəsində fəal iştirak edir".

Bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşkilatçılığı ilə "Enerji səmərəliliyi: nəticələr və gözləntilər" mövzusunda keçirilən ictimai müzakirədə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, ötən il Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan COP28 konfransında SOCAR aktiv iştirak edərək öz dekarbonizasiya hədəflərini beynəlxalq ictimaiyyətə təqdim edib.

"2024-cü ildə isə Azərbaycan COP29-a ev sahibliyi etməklə qlobal iqlim gündəliyinin formalaşmasında mühüm rol oynayıb. SOCAR bu mötəbər tədbirdə enerji keçidi və dekarbonizasiya strategiyasına dair müzakirələrdə fəal iştirak edərək şirkətin ekoloji siyasətini və bu istiqamətdə həyata keçirilən layihələri təqdim edib. Konfrans çərçivəsində SOCAR tərəfindən təşkil olunan tədbirlərdə şirkətin ətraf mühitin mühafizəsi, bərpaolunan enerji və dekarbonizasiya sahəsində əldə etdiyi nailiyyətlər ətraflı müzakirə olunub. Bu təşəbbüslər çərçivəsində SOCAR beynəlxalq tərəfdaşlarla əməkdaşlığı genişləndirərək yaşıl enerji layihələrinin həyata keçirilməsində aktiv iştirak edir.

Şirkətimiz qlobal ekoloji çağırışlara cavab olaraq dekarbonizasiya və enerji keçidi istiqamətində mühüm layihələr icra etməkdə davam edir. COP29 çərçivəsində SOCAR olaraq enerji səmərəliliyinin artırılması, karbon emissiyalarının azaldılması və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində mühüm təşəbbüslərlə çıxış etdik. Bu istiqamətdə beynəlxalq əməkdaşlıqlarımızı gücləndirmək və qlobal ekoloji çağırışlara töhfə vermək bizim üçün prioritet vəzifələrdən biridir. SOCAR-ın həyata keçirdiyi dekarbonizasiya və enerji keçidi layihələri Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq ekoloji tarazlığın qorunmasına və qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməyə davam edəcək", - deyə Əfqan İsayev əlavə edib.

# Milli Ödəniş Sistemləri ilə aparılan əməliyyatların həcmi 70 milyard manatı ötüb

Bu ilin yanvar ayı ərzində Milli Ödəniş Sistemləri (AZİPS, XÖNKS, AÖS) vasitəsilə aparılan tranzaksiyaların ümumi həcmi 70,9 milyard manatı, sayı isə 14,3 milyonu ötüb.

Bu barədə Trend Mərkəzi Bankdan məlumat əldə edib.

Məlumata əsasən, 2024-cü ilin eyni ayının göstəricilərinə nisbətdə aparılan əməliyyatların həcmində 5,7%, sayında isə 16,2% artım qeydə alınıb.

Cari ilin ilk ayında Real Vaxt rejimində Banklararası Milli Hesablaşmalar Sistemi (AZİPS) vasitəsilə 117 min əməliyyat üzrə 66,798 milyard manat, Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖNKS) vasitəsilə 14,1 milyon əməliyyat üzrə 4,059 milyard manat, Ani Ödənişlər Sistemi (AÖS) ilə isə 72,2 min əməliyyat üzrə 87,9 milyon manat həcmində ödəniş həyata keçirilib.

# "Növbəti illərdə Azərbaycanda daha çox kosmik proqramlar ərsəyə gələcək"



Bu sözləri Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Saməddin Əsədov "Ümumdünya Mühəndislik Günü" ilə bağlı keçirilən tədbirdə deyib.

O, bildirib ki, kosmik proqramların ərsəyə gəlməsi ilə Azərbaycan hökumətinin nüfuzu və yeri kosmosda möhkəmlənir: "Görülən işlər nəticəsində bu gün Azərbaycan dünya kosmik sənayedə böyük nüfuza malikdir. Biz əvvəl bunu regional deyə bilərdik, amma indi rahatlıqda qlobal dünyada deyə bilərik.

Ölkəmiz çoxsaylı kosmik layihələrin və beynəlxalq proqramların iştirakçısıdır. Azərbaycan orbitdə özünün xüsusi mövqeyi olan azsaylı dövlətlərdən biridir. Yaxın illərdə Azərbaycanlı mühəndislər ən peşəkar, ən yüksək tələblərə cavab verən peyklər hazırlayıb, orbitə buraxacaq".

# Dünyanın ixtiraçı qadınlarını tanıyaq

***Adətən, dünya miqyaslı böyük ixtiralar haqqında danışarkən hamının tanıdığı məşhur alimlərin adları yada düşür. Lakin hər gün istifadə etdiyimiz elə cihazlar, məişət avadanlıqları, qarşılaşdığımız elə texnoloji yeniliklər var ki, biz onları kəşf edən, yaradan insanları tanımalı və onlara minnətdar olmalıyıq. Bu insanların qadın olması isə daha sevincli və qürurvericidir.***

**Kvadrat kağız paket cihazı – Margaret Knight**



Margaret Knight kvadrat əsaslı olmayan kağız paketlərin istifadə üçün çox da yararlı olmadığını düşünərək, kağız paketləri kvadrat şəkildə istehsal edən cihaz kəşf etmişdir. Charles Annan adlı bir şəxs isə "heç bir qadının belə qəliz aparatı yarada bilməzdi" iddia edərək, ixtiranı öz adına çıxarmışdı. Knight illərlə davam edən məhkəmədən sonra – 1871-ci ildə ixtirasının patentini ala bilmişdi.

**Qabyuyan maşın – Joshephine Cochrane**



1886-cı ilin aristokratlarından olan Josephine Cochrane adlı bu xanım bahalı qablarını korlayan təmizlik işçilərinə çox əsəbiləşmişdi. Bu əsəb onun ilk qabyuyan maşınını kəşf etməsinə təkan vermişdi. Bu qadın çirkli qabları xidmətçilərindən daha sürətli yumağın yollarını axtarıb. Qablar sürətlə yuyulacaq və biri də qırılmayacaq. Beləliklə, o, qabyuyan maşını ixtira edib. Onun ilk maşını mis qazan və motordan ibarət olub. Bu ixtira həm də su təzyiqindən istifadə edən ilk mexanika olaraq tarixə düşüb. Jozefina bu ixtiranın patentini aldıqdan sonra öz fabrikini qurub.

**Kevlar - Stefaniya Kvolek**

Kimyagər Kvolek güllə keçirməyən jiletlərdəki incə lifləri kəşf edib.



1965-ci ildə ixtira etdiyi bu material poladdan 5 qat daha güclü olub. Bu səbəbdən həmin jiletlər milyonlarla insanın həyatını qurtarıb, hazırda qurtarmağa da davam edir. Hazırda bu maddə mobil telefonlardan təyyarələrə qədər bir çox yerdə istifadə edilir.

**Monopliya - Elizabet Magi**



Məşhur monopoliya oyununun yaradıcısı Çarlz Darrov olaraq bilinir. Lakin gerçəkdə belə deyil.

Tarixin ən populyar oyununun qaydaları Elizabet Magi adlı qadın tərəfindən qoyulub. Monopoly, orijinal adı ilə Ağanın oyunu, 1903-cü ildə Elizabeth Magie tərəfindən kəşf edilib. Magie "haqsız yerə torpaq sahibi olmağın faciəvi təsirlərini azaltmaq" düşüncəsindən təsirlənərək bu oyunu hazırlamışdı. Onun 1904-cü ildə dizayn etdiyi oyunun adı isə "The Landords Game" (Mülkədarların oyunu) idi.

Eyni oyun "Monopoliya" adı ilə Parker Brothers tərəfindən də yayımlanıb. Parker oyunun ixtiraçısı olaraq tanınan Darrova 500 dollar ödəyib. Daha sonra Megidən də oyunun patentini alıb.

**Şüşəsilən – Mary Anderson**

1903-cü ildə Mary Anderson avtomobil sürücülərinin maşınların ön şüşəsindəki qar və buzları təmizləmək üçün tez-tez dayandığını müşahidə edir.



Bu müşahidə onu rezin qanadları olan şüşəsilənləri kəşf etməsinə qədər gətirib çıxarır. Bu isə sürücüləri böyük əziyyətdən xilas etmişdi. Avtomobillərin şüşəsini avtomatik olaraq siləcək qurğunu yaratmaq üzərində işləyən Meri həmin il ixtirasının patentini alıb. İlk zamanlar maşın istehsalçıları bu siləcəklərin sürücülərin diqqətini dağıdacağını deyib. Bu iraddan sonra Merinin ixtirasına düzəlişlər edilib və siləcəklər müasir halındakı kimi avtomobillərə yerləşdirilib.

**Dairəvi mişar - Tabita Bebbitt**



Tabita Bebbitt mişarı irəli-geri çəkməklə və iki nəfərin köməyi ilə kişilərin necə ağac kəsməklərinə uzun müddət tamaşa edir. Bu zaman hər iki kişinin üzərinə eyni dərəcədə yük düşürdü. Taxta yalnızca mişar irəli çəkildikdə kəsilirdi, yəni mişarı geri çəkdikdə taxta ilə heç nə baş vermirdi. Bebbitt belə düşünür ki, bu mişarlar boşa enerji sərfidir və 1810-cu ildə dairəvi mişarın prototipini yaradır və bu daha sonradan meşə sənayesində istifadə olunmağa başlayır.

**Kompüter proqramı - Qreys Hopper**



Qreys də 1952-ci ildə ilk kod yığmaq funksiyasını yazıb. Bu funksiya sözlərlə verilmiş təlimatları kompüterin anlaya biləcəyi kodlara tərcümə edib. Beləcə, proqramlama işi daha sürətlə həyata keçirilib. Bu, kompüterin işləmə metodlarında inqilabi xarakterli bir kəşf olub. Məhz bu iş Qreysi kompüter proqramçılığının birincisi edib.

**Şirli Ann Cekson - amerikalı bir fizik**



O, 1970-ci ildə apardığı araşdırmalar nəticəsində telefona zəng gələn zaman zəng edən adamın kimliyini göstərən funksiyanı kəşf edib. Telekommunikasiya sahəsində gördüyü işlər isə daha çox faks maşını, fiber optika və s. kimi avadanlıqların inkişafına təkan verib. Şirli həmçinin, Massaçusetts Texnologiya Universitetində doktor dərəcəsi alan ilk qaradərili qadın olub.

**Kosmik baza batareyaları - Olqa Qonzales-Sanabria**



Beynəlxalq Kosmik Stansiyada istifadə edilən uzunömürlü nikel-hidrogen batareyaların ixtiraçısı Porto Rikolu elm adamı Olqa Qonzalez-Sanabria olub. O, bu texnologiyanı 1980-ci illərdə NASA-nın Qlenn Araşdırma Mərkəzində kəşf edib.

**Ev təhlükəsizlik sistemi - Mariya Van Brittan Brovn**



Tibb bacısı işləyən və çox zaman evdə tək qalan Mariya özünü daha təhlükəsiz hiss etmək üçün bir üsul axtarışına çıxıb. O, nəhayət ki, 1960-cı ildə həyat yoldaşı ilə birlikdə ev üçün təhlükəsizlik sistemini qurub.

Bu cihaz olduqca qarışıq şəkildə dizayn edilib. Bir motor tərəfindən idarə edilən kamera müşahidə dəliyindən ətrafa nəzarət edib. Kameranın çəkdiyi görüntülər isə yataq otağındakı ekrana göndərilib. Ekran qurğusu isə həyəcan siqnalı ilə dəstəklənib.

**Kök hüceyrə izolyasiyası - Ann Tsukamoto**



Tsukamoto kök hüceyrə izolyasiyasının patentini 1991-ci ildə alıb.

Bu, xərçəng xəstələrinin qan dövranı sistemini anlamaq və xəstəliyin bütün mümkün müalicə yolları üçün olduqca yararlı bir ixtira hesab edilir.

**Silikon**



Patricia Billings Texasdakı Amarillo Kollecində heykəltəraşlıq təhsili alıb. O, çalışqan tələbə idi, lakin heykəllərin düzəldildiyi materiallar qısa ömürlü idi və öz-özünə dağılırdı. Sonra Patricia öz qarşısına uzunömürlü və işini məhv olmadan qoruyacaq bir material tapmaq vəzifəsini qoydu.

1970-ci ildə 8 illik təcrübədən sonra Patrisiya qırılmaz gips icad etdi. Materialın yalnız davamlı deyil, həm də yanğına davamlı olduğu ortaya çıxdı. Bu gün silikon tikinti sənayesində geniş yayılmışdır və mətbəx qabları - silikon qəliblər və digər mətbəx tutacaqları istehsalında da istifadə olunur.

**Dəftərxana ləvazimatlarının korrektoru**



Bet Grem 1951-ci ildə makinaçı kimi işə düzəlmişdi. Stress, yuxunun az olması və yeni məlumatların sonsuz axını onun işinə təsir edirdi: Bet yazı yazarkən çoxlu səhvlər edirdi. Ancaq buna baxmayaraq, o, çox bacarıqlı idi. O, köhnə məlumatların afişaların üzərinə necə yapışdırıldığını görərək bu üsulu tətbiq etmək qərarına gəlir. Beləliklə, Bet Grem səhvlərini ağ boya ilə ört-basdır edir və öz evində "maye kağızı" təkmilləşdirməyə çalışırdı.

Maraqlıdır ki, IBM bu ixtiranı almaqdan imtina etdi, lakin Bet korrektorunu öz qarajında hazırlayıb satmağa davam etdi. Yalnız 1979-cu ildə Gillette patenti almaq üçün 47,5 milyon dollar və satış faizi ödədi.

**Birdəfəlik uşaq bezləri**



Marion Donovan Yale Universitetində (ABŞ) İngilis ədəbiyyatı üzrə bakalavr dərəcəsi və memarlıq magistri dərəcəsi almışdır. O, həyatını ailəsinə həsr etməyə qərar verməzdən əvvəl New York VOGUE-da redaktor köməkçisi kimi çalışıb.

İkinci övladının dünyaya gəlməsi ilə Marion uşaq bezlərinin maye axıtması problemi ilə üzləşdi. Qadın tikiş maşınında uşaq bezləri üçün örtük kimi istifadə edilə bilən suya davamlı, hava keçirməyən təbəqə tikdi. Beləliklə, hamamda istifadə edilən duş pərdəsi tez bir zamanda bazarda məşhurlaşan müasir uşaq bezlərinin prototipinə çevrildi. 1951-ci ilə qədər Donovan 4 patent aldı və ixtiranı 1 milyon dollara Keko şirkətinə satdı.

**Wi-Fi - Hedy Lamarr**



Hedy Lamarr bir neçə faktla məşhurlaşmışdır. Birincisi, kino tarixində ilk açıq-saçıq səhnəni oynamışdır. İkincisi, buna görə Adolf Hitler Hedy Lamarrı Üçüncü Reyxin düşməni adlandırıb, Papa XII Piy isə katolikləri filmə baxmamağa çağırıb. Üçüncüsü, 1941-ci ildə Hedy Lamarr yayım tezliyini dinamik şəkildə dəyişən rabitə qurğusunu patentləşdirdi və bu, düşmənlərin informasiyanı ələ keçirməsini çətinləşdirdi. İkinci Dünya müharibəsi zamanı bu inkişafa laqeyd qalmışdılar, lakin 1962-ci ildə "gizli rabitə" artıq Amerika torpedalarında, bu gün isə mobil şəbəkələrdə Bluetooth və Wi-Fi-da istifadə edilir.

**Günəş enerjili ev – Maria Telkes**




Maria Telkes Massachusetts Universitetində Günəş Enerjisi barədə araşdırmalar edirdi. 1940-cı illərdə memar Eleanor Raymon ilə birlikdə ilk günəş enerjili evi inşa etmişdilər.

**Qar təmizləyən maşın - Sintiya Vestover**



Təmizliyin tək evdə deyil, küçələrdə də mütləq olduğunu düşünən katibə Sintiya Vestover 1892-ci ildə müasir qar təmizləyən maşınların "əcdadını" yaradır.



# "AzerGold" QSC-nin nümayəndə heyəti Türkiyəyə işgüzar səfər edib



"AzerGold" QSC-nin nümayəndə heyəti Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə işgüzar səfər edib.

Səfər iki ölkə arasında dağ-mədən sahəsində əlaqələrin möhkəmləndirilməsi, geoloji kəşfiyyat, hasilat, qiymətli metalların emalı, laborator tədqiqi sahəsində təcrübə mübadiləsinin aparılması məqsədilə həyata keçirilib.

Səfər çərçivəsində "AzerGold" QSC-nin nümayəndələri Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsində (MTA – Maden Teknik Arama Genel Müdürlüğü) olublar. Ziyarət zamanı tərəflər arasında mövcud əlaqələrin gücləndirilməsi, innovasiya və texnoloji yeniliklərin öyrənilməsi, ortaq layihələrin idarə olunması istiqamətində səmərəli və faydalı müzakirələr aparılıb. Həmçinin 2022-ci ildə Bakıda təşkil edilən Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu çərçivəsində iki ölkə hökumətləri arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Sazişin imzalandığı xatırladılıb. Sözügedən forum çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, "AzerGold" QSC, MTA Baş İdarəsi və MTA Beynəlxalq Mədənçilik Şirkəti arasında əməkdaşlığın həyata keçirilməsi sahəsində dördtərəfli Anlaşma Memorandumunun imzalandığı qeyd edilib. Bu sənədlərdən irəli gələn məsələlərin həlli, birgə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində qarşılıqlı səfərlərin təşkil edildiyi, təmasların daha da intensivləşdirildiyi məmnunluqla vurğulanıb.

Daha sonra beynəlxalq nüfuzlu "Bureau Veritas" şirkətinin Ankara şəhərində yerləşən sınaq laboratoriyasını ziyarət edən nümayəndə heyəti müəssisənin fəaliyyəti, tətbiq olunan texnologiya və avadanlıqlarla yaxından tanış olub, laborator analiz proseslərinin qiymətləndirilməsi, bu sahədə qabaqcıl texnologiyaların öyrənilməsi məqsədilə fikir mübadiləsi aparıb.

Səfər çərçivəsində, həmçinin dağ-mədən sahəsində mühəndis həlləri, təlim, proqram təminatı və avadanlıq xidmətləri təqdim edən "Mine & Process Engineering Solutions" şirkətinin Ankara şəhərində yerləşən emalatxanası ilə tanışlıq olub. Tərəflər birgə əməkdaşlıq imkanlarını müzakirə edib, xüsusilə əlvan metalların emalı sahəsində Türkiyədə tətbiq edilən qabaqcıl texnologiyalar haqqında danışıblar.

Qeyd edək ki, ölkəmizin dağ-mədən sənayesini beynəlxalq miqyasda uğurla təmsil edən "AzerGold" QSC-nin bu sahə üzrə böyük təcrübəyə malik ölkələrdə tətbiq olunan müasir texnologiyalar, idarəetmə yanaşmaları, innovativ həllər haqqında məlumatlar əldə edilməsi, effektiv modellərin tətbiqi üzrə təşəbbüsləri istehsal proseslərinin səmərəliliyinin daha da artırılması və işgüzar əlaqələrin inkişaf etdirilməsinə yönəlib.

# "AzerGold" QSC-nin təqaüd müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Fevralın 27-də "AzerGold" QSC-də ali və peşə təhsili müəssisələrinin tələbələri üçün elan edilən 4-cü Təqaüd proqramı müsabiqələrinin qaliblərinin mükafatlandırılması, "Mədən topoqrafiyası" dərs kitabının təqdimat mərasimi keçirilib.***




Tədbirdə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov, eləcə də ali təhsil müəssisələrinin rektorları və tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Təqaüd proqramlarının növbəti qaliblərini təbrik edib və onlara təhsil, gələcək karyera həyatlarında uğurlar arzulayıb.

Zakir İbrahimov Təqaüd proqramları haqqında ətraflı bəhs edərək, layihənin QSC-nin inkişafı strategiyası əsasında müəyyən edilmiş kadr ehtiyacları üzrə resursların zamanında cəlb olunması planı çərçivəsində 2021-ci ildən həyata keçirildiyini qeyd edib. Bildirilib ki, sənaye və dağ-mədən istiqaməti üzrə təhsil alan tələbələri əhatə edən layihənin əsas məqsədi təhsilə marağın daha da artırılması, istedadlı tələbələrin potensial bilik və bacarıqlarının təcrübə şəraitində inkişaf etdirilməsidir.

Layihə çərçivəsində, bugünədək, ümumilikdə 38 nəfərin ali təhsil və 37 nəfər peşə təhsili üzrə tələbənin təqaüd qalibi olduğunu, QSC-də istehsalat təcrübəsinə cəlb edildiyini qeyd edən Zakir İbrahimov Səhmdar Cəmiyyətinin ixtisaslı kadr ehtiyacına uyğun olaraq həmin tələbələrin məzun olduqdan sonra peşə fəaliyyətinə başlamasına da dəstək göstərildiyini diqqətə çatdırıb.

Təqaüd proqramlarını tələbələrin təhsil həyatına, onların bilik və bacarıqlarının artırılmasına mühüm töhfə hesab edən Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə "AzerGold" QSC-nin timsalında dövlət və özəl sahibkarlıq subyektlərinin korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində reallaşdırdığı bu cür təşəbbüslərin milli təhsilin inkişafı ilə bağlı dövlətimizin başçısı tərəfindən qarşıya qoyulmuş məqsədlərə xidmət etdiyini vurğulayıb.

Nazir müavini qalib tələbələri təbrik edərək, proqram müddəti ərzində tələbələrə istehsalat təcrübəsindən maksimum faydalanmağı, peşəkar hazırlıqlı mütəxəssis kimi yetişmələri üçün onlara təqdim olunan bütün imkanlardan yararlanmağı tövsiyyə edib.

Daha sonra peşə-ixtisas sahəsi üzrə təhsil alan tələbələr üçün nəşr olunan "Mədən topoqrafiyası" kitabı barədə məlumat verən Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru dərs vəsaitinin Elm və Təhsil Nazirliyinin təşəbbüsü, "AzerGold" QSC-nin dəstəyi ilə türk dilindən Azərbaycan dilinə tərcümə və nəşr etdirildiyini diqqətə çatdırıb. O, "Mədən topoqrafiyası" kitabının mədənçilikdə müasir topoqrafik ölçmə-hesablama növ və üsulları ilə bağlı peşə məktəbi tələbələrinin hazırlığına xidmət etdiyini qeyd edib.

Bildirilib ki, 200 tirajla çap olunan kitab ölkəmizin əsas dağ-mədən sənaye rayonları hesab olunan Daşkəsən və Gədəbəy, eləcə də Gəncə şəhərində yerləşən peşə təhsili müəssisələrinə göndərilib.

Sonda Təqaüd proqramı müsabiqələrinin qaliblərinə təltifnamə və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, 2024-2025-ci tədris ili üzrə ali təhsil müəssisələrindən "Geologiya", "Dağ-mədən mühəndisliyi", "Kimya mühəndisliyi", "Ekologiya" ixtisasları üzrə təhsil alan 10, peşə təhsili müəssisələrindən isə 2 tələbə "AzerGold" təqaüdünün qalibi olub. Proqram çərçivəsində tələbələrin sosial müdafiəsinə dəstək məqsədi ilə qaliblərin hər biri üçün aylıq təqaüdün verilməsinə başlanılıb.

Layihə çərçivəsində Səhmdar Cəmiyyətinin ixtisaslı kadr ehtiyacına uyğun olaraq proqramda iştirak edən tələbələrin məzun olduqdan sonra peşə fəaliyyətinə başlamasına da dəstək göstərilməsi nəzərdə tutulub.

# "Bakcell" Sumqayıtda yeni Müştəri Xidmətləri Mərkəzini istifadəyə verdi




İnnovasiya və sürət lideri "Bakcell" Sumqayıt şəhərində yeni Müştəri Xidmətləri Mərkəzinin açılışını edib. Yeni mərkəz abunəçilərə daha sürətli, rahat və texnoloji xidmətlər təqdim etməklə, fərqli müştəri təcrübəsi vəd edir.

Sülh küçəsi 196 ünvanında yerləşən yeni "Bakcell" Müştəri Xidmətləri Mərkəzi ənənəvi xidmətlərlə yanaşı, şirkətin ən son yenilikləri ilə tanış olmaq imkanı yaradır. Mərkəzdə müştərilər həm yüksək texnoloji həllərdən yararlana, həm də süni intellekt dəstəkli xidmətlər haqqında ətraflı məlumat ala bilərlər. Xüsusilə, elektron guşələr və növbəli keçid sistemi müştəri əməliyyatlarının daha keyfiyyətli və sürətli şəkildə həyata keçirilməsini təmin edir.

Vurğulayaq ki, yeni açılmış Müştəri Xidmətləri Mərkəzi "Bakcell"in ölkə üzrə sayca 21-ci xidmət mərkəzidir.

# "Latviyadan Azərbaycana ərzaq ixracı artır"

Bunu Latviyanın ticarə-sənaye palatasının Aİ layihələri üzər departamentinin direktoru Liqa Siçyova Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında biznes əlaqələrin inkişafına həsr olunmuş B2B Forumunda etdiyi çıxışda deyib.

Siçyova qeyd edib ki, Latviya əsasən Azərbaycana heyvan mənşəli məhsullar, qida məhsulları, kimya sənayesi məhsulları və əczaçılıq məhsulları ixrac edir.

***"Bizi xüsusilə Azərbaycana ərzaq məhsulları ixracının artması sevindirir və bu göstəricilər artmaqda davam edir"***, - deyə o vurğulayıb. Onun sözlərinə görə, Latviya Azərbaycandan başlıca olaraq metal, maşınqayırma məhsulları, o cümlədən qida məhsulları və tərəvəz idxal edir.

***"Biz ticarətin hər iki istiqamətdə inkişaf etməsindən məmnunuq, çünki yalnız qarşılıqlı mübadilə şəraitində möhkəm iqtisadi əlaqələrdən danışmaq olar"***, - deyə L. içyova qeyd edib.

Qeyd edək ki, Bakı şəhərində Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında biznes əlaqələrinin inkişafına həsr olunmuş B2B Forum keçirilib. Tədbir LEF Network Azerbaijan layihəsi çərçivəsində, "Caspian Energy Club"un təşkilati dəstəyi ilə baş tutub.

# Qazaxıstandan Azərbaycana taxıl tədarükü artıb

Bakı Taxıl Terminalı ilə Qazaxıstandan Azərbaycana taxıl tədarükü 1,5 milyon tona çatıb.

Bu barədə Qazaxıstan və Azərbaycan kənd təsərrüfatı nazirliklərinin nümayəndələri arasında keçirilmiş işçi qrupun ilk iclasında elan olunub.

Görüş çərçivəsində Qazaxıstanın kənd təsərrüfatı vitse-naziri Ermek Kenjexanulı və Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini Zeynalov Elçin Razim oğlu aqrar sektorda ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.



Tərəflər qeyd ediblər ki, işçi qrupun yaradılması qarşılıqlı əlaqələrin gücləndirilməsinə və tərəfdaşlığın əsas istiqamətlərinin müəyyən edilməsinə hədəflənib.

# "AzerGold" QSC Daşkəsəndə Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbir keçirib

"AzerGold" QSC-nin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində 1 Mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş "Mülki müdafiə əhalinin təhlükəsizliyinin təminatıdır" mövzusunda maarifləndirici tədbir keçirilib. Mülki müdafiə tədbirlərinin planlaşdırılması, vaxtında və keyfiyyətlə icra edilməsi, bu sahədə risklərin azaldılması məqsədilə təşkil edilən tədbir interaktiv formatda, nəzəri və praktiki hissələrdən ibarət olub.

Tədbir çərçivəsində əvvəlcə Daşkəsən Rayon İcra Hakimiyyəti, Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi, Dövlət Yanğın Nəzarəti Xidmətinin Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi, Dövlət Yanğından Mühafizə Xidmətinin Daşkəsən Rayon Yanğından Mühafizə Hissəsi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Daşkəsən rayon bölməsinin nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

Görüşdə "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü – sədrin müavini, QSC-nin Fövqəladə hallar komissiyasının sədri Xəyyam Fərzəliyev mülki müdafiə sahəsində əməkdaşların məlumatlılığının artırılması, fövqəladə vəziyyətlərə hazırlığının davamlı olaraq yoxlanılması və daha da yaxşılaşdırılması məqsədilə sistemli şəkildə icra edilən tədbirlər barədə məlumat verib.

Qeyd olunub ki, Səhmdar Cəmiyyəti istehsalat prosesi zamanı təhlükəsizliyin təmin edilməsini, insan amilinin daima ön planda tutulmasını fəaliyyətinin başlıca prinsipi kimi müəyyən edib.




Bildirilib ki, yanğın və digər fövqəladə hallara qarşı preventiv tədbirlər çərçivəsində dövri olaraq aidiyyəti dövlət qurumlarının dəstəyi ilə təlim-məşq toplanışları təşkil edilir, əməkdaşların mülki müdafiə ilə bağlı davamlı maarifləndirilməsi təmin edilir.

Ötən dövrlər həyata keçirilmiş sistemli tədbirlər nəticəsində istehsalat fəaliyyəti tam xəsarətsiz davam etdirilib, beləliklə, Səhmdar Cəmiyyətinin xəsarətsiz ötüşən iş saatları 6 milyon saata çatıb.

Müzakirə formatında davam edən görüşdən sonra işçi heyətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə istifadə edilən mülki müdafiə, yanğından mühafizə və digər texniki təhlükəsizlik vasitələri nümayiş etdirilib.

Daha sonra təlim-məşq toplanışı çərçivəsində dağ şəraitində yanğın və qəza-xilasetmə işlərinin aparılması sahəsində texniki təhlükəsizlik qaydalarına dair təlim keçirilib, mürəkkəb relyefli ərazidə yanğının söndürülməsi və təxliyyə prosesinin simulyasiyası təşkil edilib.

# Media nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib

Media nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunu təşviq etmək məqsədilə təlim keçirilib. Altmışa yaxın iştirakçının qatıldığı təlim "Bakcell" və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) birgə tərəfdaşlığı çərçivəsində baş tutub.



İl ərzində planlaşdırılan təlimlər silsiləsinin ilk sessiyasında media nümayəndələrinə rəqəmsal təhlükəsizlik sahəsində əsas risklər, kibertəhlükəsizlik insidentlərinə qarşı müdafiə üsulları və rəqəmsal medianın informasiya təhlükəsizliyindəki rolu barədə ətraflı məlumat verilib. Təlim iştirakçıları, eyni zamanda, süni intellektin kibertəhlükəsizlikdə tətbiqi, məlumatların məxfiliyi və kiberfırıldaqçılıq riskləri kimi vacib mövzular ətrafında müzakirələr aparıblar.

***"Telekom sektorunda süni intellekt və innovasiyalar getdikcə daha böyük rol oynayır və biz media nümayəndələrinin bu trendləri yaxından izləməsinə kömək etməyi vacib hesab edirik. İnanırıq ki, təşkil etdiyimiz təlimlər iştirakçıların texnoloji yeniliklərə dair biliklərini artırmağa və rəqəmsal sahədəki dəyişiklikləri daha dolğun işıqlandırmalarına imkan yaradacaq"***, - deyə "Bakcell"in baş direktoru Klaus Müller bildirib.

İRİA-nin İdarə Heyətinin sədri Fərid Osmanov isə təlimin əhəmiyyətini vurğulayaraq bildirib: ***"Media cəmiyyətin yeniliklərə açıq olmasında və innovativ düşüncənin formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə kibertəhlükəsizlik və rəqəmsal ekosistemin qorunması xüsusilə aktual məsələyə çevrilib. Bu təlimlər media nümayəndələrinə yalnız rəqəmsal bacarıqlar qazandırmır, eyni zamanda, onları kibertəhlükəsizlik risklərinə qarşı daha hazırlıqlı edir. Rəqəmsallaşan dünyada medianın təhlükəsiz informasiya mühitini qoruması strateji əhəmiyyət kəsb edir."***

# Dünya mərkəzi bankları yanvarda 18.5 ton qızıl alıb



Yanvar ayında Ümumdünya Qızıl Şurasının (WGC) ilkin hesablamalarına görə, qlobal mərkəzi banklar qızıl-valyuta ehtiyatlarında qızılın həcmini 18.5 ton artırıblar.
Məlumata görə, inkişaf etməkdə olan bazarların mərkəzi bankları ən aktiv alıcılar olaraq qalır. Yanvarda ilk 3-lüyə Özbəkistan (8.1 ton alınıb), Çin (5 ton) və Qazaxıstan (3.8 ton) daxil olub.
Polşa (3.1 ton), Hindistan (2.8 ton), Çexiya (1.7 ton), Qətər (1.3 ton) və başqaları da ehtiyatlarını artırmaqda davam edir. Yanvarda Rusiya (3.1 ton), İordaniya (3 ton) və Qırğızıstan (1.9 ton) qızıl ehtiyatlarını azaldıb.
"Solidcore Resources plc" 2025-ci ildə qızıl ekvivalenti hasilatının 470 000 unsiya olacağını gözləyir.

# "Saudi Aramco" dividend ödənişlərini azaldacaq

Səudiyyə Ərəbistanının neft nəhəngi "Saudi Aramco" 2025-ci ildə ümumi dividend ödənişlərinin 85,4 milyard dollar olacağını gözləyir.
Bu, şirkətin ötənilki göstəricilərindən satış həcminin azalması və yüksək xərclər səbəbilə 30 faiz daha azdır (124,25 milyard dollar). "Saudi Aramco"nun 2024-cü ildə xalis gəlirləri 106,2 milyard dollar olub ki, bu da 2023-cü ilin 121,3 milyard dollarlıq mənfəətindən 12,4 faiz azdır.
*"Azalma aşağı gəlir və satışla bağlı olan digər – yüksək əməliyyat xərcləri, aşağı maliyyələşmə və mənfəətlə bağlı olub. İtkilər aşağı mənfəət vergisi və zəkat hesabına qismən kompensasiya olunub"*, - deyə şirkətin açıqlamasında bildirilir.




# İki əfsanəvi investor süni intellektə $40 milyard sərmayə qoyur



Amerikalı investor, "Guggenheim Partners" investisiya şirkətinin direktoru Mark Uolter və "Legendary Entertainment" film şirkətinin keçmiş sahibi Tomas Tall süni intellektə 40 milyard dollar sərmayə qoyurlar.
Onlar bunu cənab Uolterin "TWG Global" şirkəti vasitəsilə etməyi planlaşdırırlar. İnvestorlar sahib olduqları şirkətlərin səmərəliyini və gəlirliliyini artırmaq üçün süni intellektdən istifadə etməyi planlaşdırırlar.
Qeyd edək ki, "TWG Global" cənab Uolterin bəzi aktivlərini, o cümlədən onun "Guggenheim"dəki payını idarə edir. "Financial Times" qəzeti yazır ki, onlar 2022-ci ildə birlikdə sərmayə qoymağa qərar veriblər və bu məqsədlə keçən il süni intellekt üzrə mütəxəssisləri işə götürüblər.

# OPEC+ aprel ayından neft hasilatını artırmaq planlarını təsdiqləyib

OPEC+ üzvü olan səkkiz ölkə qlobal xammal bazarındakı vəziyyəti onlayn müzakirə edib. Danışıqlardan sonra onlar təsdiqləyiblər ki, aprelin 1-dən neft hasilatının mərhələli artırılmasına başlanılacaq. Bildirilir ki, istehsal həcmi gündə 2.2 milyon barel (bpd) təşkil edəcək.
OPEC+ üzvləri həmçinin 2024-cü ilin yanvar ayından hasil edilən neft məhsullarının artıq həcmini kompensasiya etməyə razılaşıblar. Təşəbbüs 2026-cı ilin iyun ayına qədər tam şəkildə həyata keçiriləcək.




Xatırladaq ki, daha əvvəl OPEC+ ölkələri könüllü olaraq neft hasilatını sutkada 1.65 milyon barel azaldıb. Ümumilikdə, OPEC+ sazişində iştirak edən ölkələr yanvarda sutkada 21.23 milyon barel neft hasil edib.

# Tramp Çin mallarına rüsumları ikiqat artırıb



ABŞ prezidenti Donald Tramp Çindən gətirilən mallara rüsumları 10%-dən 20%-ə qədər artırıb. O, qərarını Çin hökumətinin sintetik opioidlərin, o cümlədən fentanilin Çindən ABŞ-ya ötürülməsinin qarşısını almaq üçün tədbirlər görməməsi ilə izah edib. "Bu, ölkənin milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatı üçün fövqəladə təhlükə yaradır", – deyə Tramp yazıb. Ağ Evin rəhbəri həmçinin bildirib ki, Kanada və Meksika üçün tariflər çərşənbə axşamı, martın 4-də qüvvəyə minəcək.
Kanadanın enerji daşıyıcıları istisna olmaqla, iki ölkədən hər il təxminən 1.5 trilyon ABŞ dolları dəyərində olan bütün idxala 25% tariflər tətbiq ediləcək. Xatırladaq ki, prezident fevral ayında Meksika və Kanadaya 25%, Çinə isə 10% rüsum tətbiq edib. Bununla belə, Ottava və Mexiko onların təxirə salmaq barədə ABŞ ilə razılığa gəlib.
Kanada portağal suyu, fıstıq yağı, şərab və qəhvə də daxil olmaqla, təxminən 30 milyard Kanada dolları dəyərində ABŞ ixracına tariflər tətbiq etməklə cavab tədbirləri görməyə hazırlaşır.
Çinin "Global Times" nəşri yazır ki, Pekin ABŞ-dən kənd təsərrüfatı və ərzaq məhsulları idxalına əlavə rüsumlar tətbiq etməyi düşünür. Trampın məhdudiyyətlər tətbiq etmək qərarından sonra Çin artıq bir sıra cavab tədbirləri, o cümlədən kömür və mayeləşdirilmiş təbii qaza 15% rüsum tətbiq edib.

**ALLAH RƏHMƏT ELƏSİN**

Akademik Ziyad Səmədzadə Rauf Muradova qardaşı
**BƏXTİYAR MURADOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin redaksiyası Rauf Muradova qardaşı
**BƏXTİYAR MURADOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Mərkəzi Gömrük Hospitalında 1 mart Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş maarifləndirici tədbir keçirilib




Mərkəzi Gömrük Hospitalında 1 mart Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş maarifləndirici tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev, Texniki təsərrüfat şöbəsinin rəis müavini Pərviz Sadıqov, Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədr müavini Asəf Ağayev, Baş texniki əmək müfəttişi Yaşar Yusubov, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İnfrastrukturun İnkişafı İdarəsinin baş inspektoru Əziz Cəfərov və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının əməkdaşları və həkim-rezidentlər iştirak ediblər.
Tədbiri giriş sözü ilə açan Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Fərid Əbilov Beynəlxalq Mülki Müdafiə Təşkilatı Baş Məclisinin qərarı ilə 1972-cil ildən etibarən hər il martın 1-i bu təşkilata üzv olan bütün ölkələrdə "Ümumdünya Mülki Müdafiə Günü"nün qeyd edilməsi, Beynəlxalq Mülki Müdafiə Təşkilatı tərəfindən bu illər ərzində həyata keçirilən tədbirlər, bu günün qeyd olunmasının məqsədi və əhəmiyyəti barədə ətraflı məlumat verib və tədbirin işinə uğurlar arzulayıb.
Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev mülki müdafiə işinin daim nəzarətdə saxlanılmasının, təkmilləşdirilməsinin və fövqəladə halların idarə edilməsi mexanizmlərinin gücləndirilməsinin olduqca vacib olduğunu vurğulayıb. Hospitalda Mülki Müdafiə üzrə Komissiyanın sədri olan Bəxtiyar Musayev mülki müdafiənin təşkilində hər bir əməkdaşın öz rolu olduğunu qeyd edib və əməkdaşları tədbirdə aktiv iştirak etməyə dəvət edib.
Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədr müavini Asəf Ağayev də çıxış edərək Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin bu məsələni daim nəzarətdə saxladığını vurğulayıb və mütəmadi olaraq əməkdaşlar arasında fövqəladə halların idarə edilməsinə dair təlim prosesini təşkil etdiyi üçün Tibbi Xidmət İdarəsinin rəhbərliyinə təşəkkür edib.
Daha sonra tədbirdə Mərkəzi Gömrük Hospitalının Texniki təsərrüfat şöbəsinin rəis müavini Pərviz Sadıqov "Azərbaycan Respublikası Mülki müdafiəsinin əsas vəzifələri və Mərkəzi Gömrük Hospitalında həyata keçirilən mülki müdafiə tədbirləri", Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin Baş texniki əmək müfəttişi Yaşar Yusubov "Fövqəladə halların təsnifatı, onların yaranma səbəbləri və fövqəladə hallarda mülki müdafiənin rolu və vəzifələri" və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İnfrastrukturun İnkişafı İdarəsinin baş inspektoru Əziz Cəfərov "Fövqəladə hallar zamanı təşkilatlanmış fəaliyyətin əhəmiyyəti və diqqət edilməli vacib məqamlar" mövzularında təqdimatlarla çıxış ediblər.
Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500